***MusaYaqub***
***Bir elli dağlar***

Qafqaz elimizin uca başıdır,
Dünyanın yonduğu heykəl daşıdır.
Yerin həmsəri, göyün yaşıdı
Yer burda saxlayıb dağ karvanını,
Tapıb öz elini, öz ünvanını.

O da ocağımız – Babadağımız,
Daşına iz salıb əl-ayağımız.
Ayağında Şeykəm – cənnət bağımız;
Səlim Soltanı var, Qurbangahı var,
Elin öz inamı, öz pənahı var.

Şimşəyi çaxandı, suyu axandı,
Havaxan doğrudan havada xandı.
Əsəd qayası da ona baxandı;
Birinin başında bulud tayası,
Birinin döşündə ayın ziyası.

Bir elin obası ağcabərədə,
Dağkəli oynaqlar Toğludərədə.
Durub Qara dağın ovu bərədə;
Hər qya bir sürü dağkəli saxlar,
Hər daşı tufanlı bir yeli saxlar.

Qızılqayadandır Hacılar yolu,
Gedənin üfüqə açılır yolu.
Enişi-yoxuşu möcüzə dolu;
Qayalar içində yaşıl talası,
Uyuyur Göy gölün bir cüt balası.

O da Bazardüzü – zirvəsi meydan,
Hər səhər qarında gümüşlənir dan.
Çiyin-çiyinədir neçə pəhləvan;
Şahdağın qoynunda Sənəm yaylağı,
Nə Sənəm qocalar, nə də Şahdağı.

1986

***Yaqub M. Bir elli dağlar // Bu dünyanın qara daşı göyərməz. – Bakı: Azərnəşr, 2007. – S. 579-580.***